# Xaqani Şirvani və Nəsimi yaradıcılığında təbiət-insan

## Multikultural dəyərlər



**Yusif Məhəmməd oğlu Mahmudov**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, tarix üzrə fəlsəfə doktoru**

**(əvvəli ötən sayımızda)**

***Analoji hallar heyvanların mühafizəsinə də müsbət təsir göstərib (6, 104-105). Şübhəsiz, hədislərdə və dini rəvayətlərdə pişiyin, göyərçinin, hörümçəyin və bəzi başqa heyvanların (o cümlədən bitkilərin) Məhəmməd Peyğəmbərin və imamların onlara xoş münasibəti ilə qorunması arasında bağlılıq vardır.***

***X.Şirvaninin yaradıcılığında müxtəlif bitki və heyvan adlarına çox rast gəlinir; quşlardan bülbül, qumru, sar, səlsəl, teyhu, tuti, bubbu, ənqa, göyərçin, qarğa, kəklik, qırğı və b., bitkilərdən süsən, lalə, sərv, nərgiz, ağ çiçək, yasəmən, qızılgül və s. təsviri şairin yaşadığı orta əsrlərdə mövcud olmuş bir çox müasir bitki və heyvan növlərinin adlarının doğru olduğunu göstərir. Göründüyü kimi, o dövrdə müasir məzmuna uyğun gəlməyən növmüxtəliflikləri də az deyildir.***

Biosenozu təşkil edən canlı orqanizmlər daim bir-birilə müxtəlif münasibətdə olurlar. Təbiətdə qida uğrunda geniş əlaqələrin tipik nümunəsi kimi rəqabət, yırtıcılıq, parazitizm və s. Xaqaninin şeirləri üçün səcciyəvidir:

**Pəncə atıb ceyranın boynunu sındırdı şir,**
**Göyərçində şahinin caynağında xar olub (5, 444).**

Burada yirtıcı heyvanlardan şir və şahinin qidalanma xüsusiyyəti açıq bildirilir.

Orta əsr Azərbaycan ədəbi simalarından olan Xaqani bəşəriyyətin bədii fikir tarixində əbədi olaraq ad qazanmış dahi şairlərdən biridir. Zəmanəsində söz mülkünün xaqanı olan Xaqani geniş dünyagörüşlü sənətkar kimi məlum kimyəvi maddələrin xassələrini öyrənmiş, yaradıcılığında fəlsəfi fikirlərinə məna vermək üçün onlardan ustalıqla istifadə etmişdir. O, kimya elminə yüksək qiymət verirdi:

**Dünyanın kimyası verilsə mənə,**
**Bunu bir kimsəyə satmaram yenə (4, 41-50).**

Kimya elminə münasibəti şairin bir sıra maddələrin xassələri haqqında düzgün fikirlər söyləməyə inkan verirdi. Qeyd ediyimiz kimi, burda ona əldə etdiyi elmi biliklər də kömək edib. Xaqani poyeziyasında bənzətmə məqsədilə ən çox qızıl, gümüş, qurğuşun kimi elementlərdən istifadə etmişdir. O, tamahkar adamların qızıl toplamalarına həris olduqlarına işarə edərək gözəl bir bənzətmə işlətmişdir.

**Tamah fikrindən geyinsən paltar,**
**Qızıl paltarına miqnatis olar (5, 25).**

Yəni maqnit dəmiri özünə çəkən kimi, tamahkar adamları da qızıl özünə daha çox cəzb edir. Fiziki xassəsinə görə dəmir möhkəm olub, ağırlığa davam gətirən metaldır. Həyat tərzindən şikayətlənən şair, düçar olduğu böyük məhrumiyyətlərə tablamasını bədəninin dəmir kimi möhkəm olmasında görür.

**Bədənim dərd üçün kor quyudur,**
**Həm dəmir dağıdır, qürurla durur (5, 29).**

XII əsrdə dəmir və poladdan istifadə olunmasa da, misin emalı dəmir və polada nisbətən daha asan və ucuz başa gəlirdi. Bu, misin ərimə temperaturunun dəmirə nisbətən aşağı olması ilə əlaqədardır.

**Bir odlu nalə edərsən dəmir kimi candan,**
**Civə kimi əriyər hər dəmir bu əfqandan (4, 41-50).**

Yaxud poladın daha çox möhkəm olmasına işarə edərək yazırdı:

**Bu təəccüb deyil, əgər bir qurşun olmaz qıra,**
**Hünər ona deyərəm ki, olmaz polad sındıra (4, 41-50).**

Şair burada dəmirin və poladın möhkəmliyini bənzətmə obyekti kimi vermiş, digər tərəfdən diqqəti civənin aqreqat halının maye olduğuna, gümüşün ərimə temperaturuna yönəltmişdir. O, bunu bədii şəkildə obrazlı misallarla oxucunun diqqətinə çatdırır. Xaqani bunu özünün düşdüyü çətin durumu ilə müqayisə edir, ona bənzədir, yəni vəzyyətinin çətinliyi şairi gümüş tək əridir, qəmi isə onu civə tək əzir:

**Gümüş tək əridir gah bədənini,**
**Gah da qəmlə əzir bir civə kimi (5, 91).**

Bütan bunlar göstərir ki, Xaqani Şirvani yaradıcılığında yalnız ətraf mühitə təsir göstərən faydalı və zərərli faktorların adlarını çəkməklə, onlara münasibət bildirməklə kifayətlənmir, həm də canlı və cansız orqanizmlərin əsasını təşkil edən kimyəvi maddələrə də, faydalı qazıntı nümunələrinə də toxunur. Onun əsərlərində bu məsləyə yanaşma kompleks təkil edir.

Aristotel də daxil olmaqla, qədim dünya filosoflarından başlayaraq varlığın əsasında suyun, odun, torpağın və havanın dayandığı fikrini Xaqani də qəbul etmiş və belə nəticəyə gəlmişdir ki, Günəş həyatın özüdür O, bu qənaətində haqlı idi. Elmi baxımdan da Günəş həyatın varlığında başlıca amildir. Başqa sözlə, Günəşsiz həyat mövcud ola bilməz. Yəni işıq və istilik mənbəyi kimi Günəş həyatın əsasında dayanır.

### Xaqani Şirvani yaradıcılığında multikultural dəyərlər

Xaqani Şirvani (1126–1199) XII əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri olmaqla yanaşı, çoxmədəniyyətlilik (multikulturalizm) baxımından da zəngin bir irs qoyub gedib. Onun yaradıcılığına nəzər saldıqda görürük ki, orta əsrlər Şərq dünyasının bu böyük şairinin yaradıcılığı dini, fəlsəfi və ictimai-siyasi baxışların vəhdətini təşkil edir.

XII əsr Azərbaycan ədəbiyyatının ən parlaq simalarından olan Xaqaninin əsərlərində dövrünün fəlsəfi, dini və etik dəyərləri öz əksini tapmışdır. Yaradıcılığında müxtəlif dinlərə və inanclara hörmətlə yanaşan dahi şair Xaqani Şirvani İslam dünyagörüşünə malik olsa da, onun əsərlərində xristianlıq və digər dinlər, o cümlədən zərdüştilik haqqında obyektiv fikirlərə rast gəlinir. “Həbsiyyə” əsərində və başqa şeirlərində xristian kilsələri və monastırlarını təsvir etməsi, xristian keşişləri və zərdüşti atəşpərəstlər haqqında fikirlər söyləməsi onun multikultural baxışlarının göstəricisi kimi diqqətəlayiqdir. O, bu şeirində həmçinin dini ayrı-seçkiliyin əleyhinə çıxaraq, insanın mənəvi kamilliyini ön plana çəkir.

Xaqaninin əsərlərində sosial ədalət və bərabərlik anlayışları da əsas yerlərdən birini tutur. O, insanların irqindən, dinindən və milliyyətindən asılı olmayaraq, onların hüquqlarının qorunmasının vacibliyini vurğulayırdı. Təsadüfi deyildir ki, şairin şeirlərində universal dəyərlərə əsaslanan humanist mesajlar mövcuddur.

Həyatı və yaradıcılığı ilə yaxından tanışlıq göstərir ki, o, dünya xalqlarına və onların mədəniyyətlərinə böyük maraq göstərmiş, buna görə də müxtəlif ölkələrə səyahət etmiş, Bizansa, Ərəbistana, İran şəhərlərinə gedərək bu bölgələrin mədəniyyətini yaxından öyrənmişdir. Məhz bu səbəbdən onun şeirlərində müxtəlif xalqların və mədəniyyətlərin təsviri geniş yer tutur. Bütün bunlar göstərir ki, Xaqani Şirvani universal bəşəri dəyərləri qəbul etmiş və ona diqqətlə yanaşmışdır. Bu klassik şairin əbədiyaşar poeziyasında dinlər arsında ciddi fərq yoxdur, insanlıq keyfiyyətin bütün nəsnələrin fövqündə dayanır. “Savalan dağının tərifi” adlı şeiri bu cəhətdən səciyyəvidir:

**Səadət qibləsi Savalan dağı,**
**Şərəfdə Kəbətək qazanıb şöhrət.**
**Kəbə yaşıl geyər, ağ bürünər o,**
**Çünki, ehram tutan geyər ağ xələt.**
**Bir yerdə oxudum fəzilətindən,**
**Üç ildir çəkirəm görməyə həsrət.**
**Getdim ki, başına dolanım onun,**
**Dağlar anasıdır çünki o afət.**
**Başdan ayağadək örtükdədir o,**
**Deyir: - Bakirəyəm, - açınca söhbət.**
**Min illər ömr edən bu qoca qarı,**
**Desə: - Bakirəyəm, - yalandır əlbət.**
**Gəldi daxmasına Xızr ilə Musa,**
**Yoxsul daxmasıyçün çəkdi xəcalət.**
**Qarının yekədir burnu, bu örtük,**
**O eybi örtməyə eləyir xidmət.**
**Dedim ki, çadranı üzündən götür,**
**Kim dedi qız kimi üzünü gizlət?**
**Dedi ki, dörd aydan sonra bir külək,**
**Qapanda çadramı, görünər surət.**
**Xaqani, gəl, onda bakir sözünlə,**
**Başına çadra sal, anandır, gizlət!**

Əsərlərinin təhlili göstərir ki, Xaqani yaşadığı dövrdə Şərq və Qərb arasında gedən mədəni və iqtisadi münasibətləri diqqətlə izləyirmiş. O, səyahət etdiyi yerlərdə müxtəlif xalqların həyat və düşüncə tərzi haqqında məlumat toplayır və bunu öz poeziyasında əks etdirirdi. Xüsusilə, Bizansa səfəri zamanı oradakı xristian mədəniyyəti və abidələri haqqında fikirlərini qəsidələrində təsvir etməsi bunu deməyə əsas verir.

Bütün parametrləri ilə bu böyük şairin yardıcılığı bütövlükdə multikultural dəyərləri özündə əks etdirən nümunələr kimi bu gün də öz faydalılığını nəinki itirmiyib, hətta xeyli dərəcədə aktuallıq kəsb edir. Onun əsərlərində hakim zümrənin zülmü tənqid olunur və ədalət, insansevərlik təbliğ edilir. X.Şirvani bütün insanların hüquqlarının qorunmasını önəmli hesab edir ki, bu da multikulturalizmin əsas prinsiplərindən biridir.

Xaqani və Nəsimi yaratdığı əsərləri yalnız Azərbaycan və fars dillərində deyil, həm də ərəb və digər Şərq dillərindən gen-bol istifadə etməklə yazırdı. Bu isə onun geniş dünyagörüşə və fərqli mədəniyyətlərə açıq olmasının sübutudur. Buradan belə nəticəyə gəlmək olar ki, Xaqani Şirvaninin əsərləri orta əsrlər Şərq ədəbiyyatında multikultural dəyərləri təbliğ edən mühüm nümunələrdən biridir və bu baxımdan indi də aktuallığını qoruyub saxlayır.

Xaqani Şirvani (1126–1199) XII əsr və İmadəddin Nəsimi Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələri olmaqla bərabər, öz yaradıcılıqlarında çoxmədəniyyətlilik (multikulturalizm) baxımından da diqqətəlayiq irs qoyub gediblər. Onların yaradıcılığı dini, fəlsəfi və ictimai-siyasi baxışlarının vəhdətini əks etdirir.

Apardığımız tədqiqatlar göstərr ki, Xaqani yaradıcılığında ərəb, fars və Azərbaycan türkcəsində ifadələrdən istifadə edərək çoxdilli bir poeziya nümunəsi yaratmışdır. Bu onun müxtəlif mədəniyyətlərə, dillərə olan marağının və hörmətini təzahürüdür. Qeyd etmək lazımdır ki, Xaqani və digər klassiklərimiz Azərbaycan xalqının əskidən gələn multikultral xarakterinin bariz ifadəsi kimi misilsiz əhəmiyyətə malik işlər görmüşlər.

***Geniş və dərin təfəkkürə malik, XIV-XV əsr Azərbaycanın klassik, Cahanşümul şairi İmadəddin Nəsimi 700 ilə yaxındır ki, qoca Şərqin fəlsəfi fikir tarixində və ədəbi sənət aləmində özünün layiqli yerini tutub. Yaxın Şərqdə daha çox mökəm iradə, sarsılmaz güc rəmzi, ideya mücahidi və əqidə uğrunda mübariz kimi yüz illərdir yaddaşlara hopmuş Azərbaycan şairi İ.Nəsiminin üstün keyfiyyətlərini xarakterizə edən akademik Həmid Araslı yazırdı: ‘Şərq xalqları tarixində öz məsləki uğrunda ölümə gedən, ölüm ayağında belə fikrindən dönməyən dəmir iradəli şəxsiyyətlər olmuşdur. Xəlifə cəlladlarının qarşısında mərdanə dayanıb rənginin saralmasını düşmən görməsin deyə üzünü qanı ilə qızardan Babək, ‘Ənəlhəqq” dediyi üçün X əsrdə Bağdad şəhərində dara çəkilən Mənsur Həllac, dindarların kafir adlandırıb neft tökərək yandırdıqları Eynül-Qüzzat, Əlincə qalasında Teymurləngin oğlu Miranşahın əmri ilə dara çəkilən, cəsədi at quyruğunda sürüdülən Fəzlullah Nəimi belə mərd insanlardandır...***



**(ardı gələn sayımızda)**